HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

15 sentyabr 2017-cı il
№017 (55)

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / “იენი იოლი” საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

## 2018-Cİ İLDƏ AZƏRBAYCAN, TÜRKİYƏ VƏ GÜRCÜSTAN LİDERLƏRİNİN SAMMİTİ KEÇİRİLƏ BİLƏR



Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarov bəyan edib ki, 2018-ci ildə Azərbaycan, Türkiyə və Gürcüstan prezidentlərinin sammiti keçirilə bilər.

Elmar Məmmədyarov sentyabrın 6-da türk və gürcü həmkarları ilə üçtərəfli görüşün nəticələri üzrə Bakıda keçirilən mətbuat konfransında deyib: “Biz gələn il Azərbaycan, Gürcüstan və Türkiyə dövlət başçılarının sammitinin təşkili məsələlərini müzakirə etdik. Biz dövlət başçılarının bu tədbirinin keçirilməsini təklif edirik”.

Elmar Məmmədyarov dövlət başçılarının sammitinin Türkiyədə keçirilməsinin nəzərdə tutulduğunu vurğulayıb.

O, dövlət başçılarının əvvəlki görüşünün 2014-cü ildə keçirildiyini bildirib.

## ÜÇ ÖLKƏNİN BİRGƏ HƏRBİ TƏLİMLƏRİ KEÇİRİLİB



Azərbaycan, Türkiyə və Gürcüstan hərbçilərinin iştirak etdiyi təlim kursu başa çatıb.

Təlim kursu avqustun 21-dən Saçxere dağ hazırlığı təlim mərkəzində keçirilib. Hərbçilər təlim prosesində dağ avadanlıqlarından istifadə qaydaları ilə tanış olublar, habelə yaralıların təxliyəsi və ilkin yardımla bağlı biliklərini artırıblar.

Təlimçi polkovnik Malxaz Makaradze və Saçxere dağ hazırlığı təlim mərkəzinin rəhbəri vitse-polkovnik İvane Tsxadadze təlimdə iştirak etmiş hərbçilərə müvafiq sertifikat və xatirə hədiyyələri təqdim ediblər.

Təbdirdə Azərbaycanın və Türkiyənin Gürcüstandakı müdafiə məsələləri üzrə attaşeləri mayor Fuad İbrahimov və vitse-polkovnik Merit Ozover də iştirak edib.

Təlim Gürcüstan, Azərbaycan və Türkiyə müdafiə nazirlikləri arasında üçtərəfli əməkdaşlıq çərçivəsində keçirilib.

EYNİ PROBLEMİN MÜXTƏLİF YOZUMU 2

GÖZÜNƏ GÜN DÜŞƏN ELÇİN HÜSEYNBƏYLİ (metonimiya misalı) 3

ARAKAN QIRĞINININ ƏSAS MƏQAMLARI BARƏDƏ BİR NEÇƏ SÖZ 4

İSLAM FİTNƏ-FƏSAD DİNİ DEYİL, BARIŞ DİNİDİR 5

ŞƏXSİ VƏ İCTİMAİ MÜNASİBƏTLƏRƏ DAİR DÜŞÜNCƏLƏR 6

MİRVARİNİ QAÇIRANLAR 7

## GÜRCÜSTAN PREZİDENTİ QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ MÜSƏLMANLARI TƏBRİK EDİB



Gürcüstan prezidenti Georgi Marqvelaşvili ölkənin müsəlman icmasını Qurban bayramı münasibətilə təbrik edib.

Prezidentin təbrikində deyilir: “Əziz həmvətənlər, sizi sülh, yardımlaşma və xeyirin qələbəsi bayramı olan Qurban bayramı münasibətilə ürəkdən təbrik edirəm. Gürcüstanın müsəlman icması cəmiyyətimizin ayrılmaz hissəsidir. Bizim əcdadlarımız ölkəmizi birlikdə, çiyin-çiyinə verərək qurublar, onun tarixini yaradıblar və bizim gələcəyimiz də bu cür olacaq. Mən bayrama qoşularaq sizə ailənizlə birlikdə rifah və uğurlar arzulayıram”.

## GÜRCÜSTANIN DÖVLƏT RƏSMİLƏRİ TBİLİSİ CÜMƏ MƏSCİDİNDƏ OLUBLAR

Sentyabrın 1-də Gürcüstan hökumətinin nümayəndələri Qurban bayramı münasibətilə Tbilisi Cümə məscidinə baş çəkiblər.

Gürcüstanın qaçqınlar və yerləşdirmə üzrə naziri Sozar Subari çıxışında müsəlman icmasını müqəddəs bayram münasibətilə təbrik edib. O, deyib: “Qurban bayramı xeyirxahlıq və sülh bayramıdır. Gürcüstan hökuməti adından sizi bayram münasibətilə təbrik edirəm”.

Mərasimdə Azərbaycanın Gürcüstandakı səfiri Dursun Həsənov, Türkiyənin Gürcüstandakı səfiri Zeki Levent Gümrükçü, millət vəkilləri və digər rəsmi şəxslər iştirak ediblər.



## PREZİDENT: GÜRCÜSTANIN AVROPAYA İNTEQRASİYASI GÜRCÜ CƏMİYYƏTİNİN TARİXİ MƏQSƏDİDİR

Georgi Marqvelaşvili Polşanın Krınitsa şəhərində keçirilən İqtisadi Forumda Polşa və Makedoniya prezidentləri ilə birlikdə prezident panelinin işində konfrans iştirakçıları qarşısında çıxış edib.

Gürcüstan prezidenti əsas müzakirə mövzusu Avropanın qarşısında duran problemlər, çağırışlar və Avropa Birliyinin genişləndirilməsi olan qeyri-formal açıq diskussiyaya qatılıb. O, Gürcüstan və AB-nin yaxınlaşması prosesi və bu prosesdə assosiasiya haqqında razılaşma üzrə qərarın əhəmiyyəti, azad ticarət, vizasız rejim, AB-nin açıq qapılar siyasəti, onun genişlənməsinin vacibliyi, Gürcüstanın avrointeqrasiya prosesində Rusiyanın rolu haqqında danışıb.

Marqvelaşvilinin bildirdiyinə görə, Gürcüstana Rusiyanın təcavüzünün 2008-ci ildə başlandığını iddia edən fikirlər yanlışdır. Belə ki, Rusiya Gürcüstana münasibətdə təcavüzkar siyasətinə 90-cı illərdə başlayıb. Gürcüstan müstəqilliyini bərpa edərək, öz tarixi ailəsi olan Avropaya qayıtmaq səylərini açıq şəkildə ifadə edən kimi Rusiya Gürcüstanı cəzalandırmaq qərarına gəlib.

Prezident Gürcüstanın Avropaya və Avroatlantikaya inteqrasiyanın mümkün qədər tez baş verməsini və bu qərarın tez qəbul edilməsini istədiyini qeyd edib.

Marqvelaşvili Gürcüstanın yerinin Avropa ailəsində olduğunu dilə gətirib. O, bildirib ki, Gürcüstan üçün Avropaya inteqrasiya tarixi məqsəddir, çünki Gürcüstan özünü həm mədəni, həm də siyasi planda Avropada görür. Gürcü cəmiyyəti üçün islahatların gedişi prosesində Avropa dəyərləri vacibdir.

## GÜRCÜSTAN MƏDƏNİYYƏT NAZİRİ TÜRKİYƏYƏ SƏFƏR EDİB

Gürcüstanın mədəniyyət və tarixi abidələrin mühafizəsi naziri Mixail Giorqadze 5-7 sentyabr tarixində Türkiyədə səfərdə olub. Səfəri çərçivəsində Mixail Giorqadzenin türk həmkarı, Türkiyənin mədəniyyət və turizm naziri Numan Kurtulmuşla görüşü olub.

Görüşdə gürcü və türk nazirlər 23 may 2017-ci il tarixində Tbilisidə iki ölkə arasında bağlanmış 2017-2021-ci illəri əhatə edən Mədəni Əməkdaşlıq Proqramı çərçivəsində bir sıra mühüm məsələləri – mədəni mirasın qorunması, Gürcüstan və Türkiyə arasında həyata keçiriləcək mədəni layihələrin və əməkdaşlığın bir çox aspektlərini müzakirə ediblər.



## EYNİ PROBLEMİN MÜXTƏLİF YOZUMU

Afiq MUXTAROĞLU
amuxtaroglu@mail.ru

**Deyirəm indiki yazı-pozu adamları kefdədirlər. Nədən ki, əlini hara atsan bir problem çıxara bilərsən, elə həmin problemin də harasından yapışsan ortaya yekə bir sicilləmə qoyarsan və oxuyan da sənə cani-könüldən bir "bərəkallah" deyər, sən də sevincindən özünü qoymağa yer gəzərsən. Və mən bu düşüncə ilə də yola çıxıb, bu yazını araya-ərsəyə gətirdim.**

Ordan başlayım ki, işdən evə dönərkən yolüstü dostlara baş çəkməli oldum və onların durumundan heç almadım, küsmüş və düşüncələrə dalmış kimi hərəsi bir tərəfə baxırdı. Və mən key-key işin nə yerdə olduğunu anlamağa, bunların nə bölünməmiş mallarının olduğunu yadıma salmağa çalışarkən onlardan biri üzündən-gözündən təbəssüm seli süzülə-süzülə üzünü mənə tutub: "Müəllim, biz banklar haqqında, daha doğrusu banklardan kredit götürməyin yaxşılığını və pisliyini analiz edirdik. O qədər mübahisə etdik ki, yorulduq. Birimiz kərə dedik, birimiz kürə. Bu barədə sən nə düşünürsən?" – deyib soruşdu. Mən özümü anlamamış kimi apardıqda dostlarım bir-birinə aman vermədən məsələni məndən ötrü yenidən xırdalamağa girişdilər. Düzü, mən bu xəmirin çox su aparacağını ovcumun içi kimi bildiyimdən bir yolla onların mübahisəsini çözüb, aradan çıxmaq istəsəm də, alınmadı. Onların mübahisələrinə qulaq asmalı oldum və ərz etdiyim kimi, mən işdən yorğun döndüyümdən onların bu söz-söhbətlərində iştirakçıdan çox, müşahidəçi oldum. Yoxsa mən də bir yerdə durub, dincələn deyiləm. Deyirəm bunu da biləsiniz.

Mübahisə edən dostlardan bir qədər imkanlı olanı: "Bankdan pul götürənin ağlı varmı?" – deyirdi. Bir başqası bank icad edənin yeddi arxadan dönəninə rəhmət oxuyub, fikrini də belə əsaslandırırdı ki, əlin bir yana çatmayanda işini düzəldir, əlindən tutur. Onun bu sözlərindən, özü deməsə də, bankdan kredit çəkdiyini əlbəhəl anlamaq mümkündür. Üçüncünün də bu məsələyə münasibətdə öz mövqeyi var idi: "Bankdan borc götürəndə gərək ağılla işlədəsən, krediti aldığın kimi, qaytarmağı da bacarasan". Qırımından bu dostumuzun da banka az-çox borcunun olduğunu müəyyənləşdirmək çətin deyil. Həmsöhbətlərdən söhbətə qatılmayıb, öz dünyasına qapılmış dördüncüsünün nə durumda olduğunu anlamaq üçün psixoloq-zad olmağa da ehtiyac yoxdur. Nədən ki, biçarəni borc boğaza elə yığıb, təntidib ki, ağzını açıb danışmağa heyi də qalmayıb. Borcla bağlı söhbətin ona dəxli olmadığını düşünmək tərəfimizdən səhv olardı. Əslində bu məsələ hamıdan çox ona aiddir. O üzdən ki, qapısını açıb, borc götürmədiyi bank qalmayıb.

Açığı mən də söhbətə müdaxilə etmədim. Danışanların da, sakitcə öz dünyasına qapılanın da, elə mənim özümün də məsələyə münasibətdə o qədər də fərqli fikrimiz yox idi. Çünki banklardan kredit çəkməyən adamların sayı barmaqla sayılacaq qədər qalıb, borcu olmayan adamlar az tapılan nadir kitab nüsxəsinə çevrilib. Sadəcə olaraq dostlarımla mübahisəyə girişmək həvəsimin olmaması məni fikrimi səsləndirməkdən çəkindirdi. Yoxsa onlara bu məsələ ilə bağlı yüzlərlə yerli-yataqlı, dəlil-sübutlu mülahizələrimi çatdırardım. Deyərdim ki, cibində pulu, başında ağlı olan heç bir kəs öz ayağı ilə gedib borc götürməz, götürüb özünü bataqlığa salmaz. Deməli, onu ehtiyac bu yolu seçməyə vadar edib. Cibi ilə ehtiyacları arasında yaranan tərs mütənasiblik və ya dərin uçurum onu boynubükük edib. Qazancı ilə tələbatlarının ödənilməsi üçün lazım olan vəsaitin fərqi o qədər böyükdür ki, biçarə bu fərqi qapatmaq üçün kredit götürməkdən savayı bir çarə bula bilməyib.

Deyərdim ki, əziz dostlar, hamı eyni qabiliyyət, eyni bacarıq sahibi ola bilməz. Həyatın nəbzini tutub çox qazananla, dəyirmanın gözünə girib diri çıxanla siz abırlı, zəmanə ilə ayaqlaşa bilməyənləri müqayisə etməyin. Siz niyə orta aylıq gəliri 563 lari 90 tetri olan müəllimlə biznesmeni, yüz hektarlarla torpağı olan sahibkarı tərəzinin bir gözünə qoyursunuz? Siz niyə kiminsə açdığı iş yerində işləyib bir tikə çörəyini güclə çıxaranla, deyək ki, Çindən girib, Dubaydan çıxanı müqayisə edirsiniz? Axı, hamı eyni şeyi bacara bilməz. Bütün bunları ürəyimdən keçirsəm də dilimə gətirə bilmədim. Məsələn, onlara bunu da demək istəyirdim ki, qardaşlar, bu gün, sabah məktəblər açılır, uşaqlar məktəbə getməlidirlər, onlara əyin-baş lazım deyilmi, dəftər-qələm lazım gəlməyəcəkmi, cib xərcliyi gərək olmayacaqmı? Cibində quşlar cikkildəşən, siçanlar oynaşan valideyn bəs nə etməlidi? Bəlkə çıxış yolunu biləniniz var, deyəsiniz bu adamlar da həmin yolla gedib düşdükləri ağır durumdan xilas olalar?

**Bütün bunları demək istəyirdim, deyə bilmədim. Bir də onu demək istəyirdim ki, ağızda "bunu et, onu etmə" deməkdən asan heç nə yoxdur, ehtiyacın necə əclaf bir zad olduğunu onu yaşamayan hardan bilsin. Daş düşdüyü yerdə ağırdır, əfəndim?!.**

## LÜTFİ ZADƏ AZƏRBAYCANDA DƏFN EDİLƏCƏK



Sentyabrın 7-də, səhər saatlarında ABŞ-da dünyasını dəyişən dünya şöhrətli alim Lütfi Zadənin cənazəsi Azərbaycana gətiriləcək.

Bu barədə Lütfi Zadə ailəsinin yaxın dostu, Azərbaycan Texniki Universitetinin professoru Şahnaz Şahbazova məlumat verib.

Onun sözlərinə görə, sənədləşmə işləri təxminən 1 həftə çəkəcək: "Lütfi Zadənin cənazəsini 10 gündən sonra Azərbaycana gətirəcəyik. Son nəfəsinə qədər Lütfi Zadənin yanında olmuşam. Oğlu Norman atası dünyasını dəyişəndə onun yanında deyildi.

Lütfi Zadə son nəfəsində məndən onun işlərinə həsr olunmuş "Softcommuting" üzrə Ümumdünya konfransını iki ildən bir təşkil etməyimi xahiş etdi. Sonra dedi ki, mənim bir layihəmi bitir və məqalə şəklində dərc etdir. Bundan başqa, elmi məqalələrinin Azərbaycanda tətbiq olunması ilə bağlı işlər görməyimi tapşırdı. Mən də ona söz verdim. O, özünün müsəlman qaydası ilə dəfn edilməsini də xahiş etdi.

Beşinci gün (sentyabrın 8-dən – red.) Berkli Universitetində Lütfi Zadənin xatirəsi yad ediləcək. Yas və dəfn mərasimi isə doğma vətənində keçiriləcək".

Qeyd edək ki, qeyri-səlis çoxluqlar nəzəriyyəsinin və qeyri-səlis məntiqin banisi, Kaliforniya Universitetinin professoru Lütfi Zadə 1921-ci ilin 4 fevral tarixində Bakı şəhərində, Rəhim Ələsgərzadənin ailəsində dünyaya gəlib.

Onu da əlavə edək ki, Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Lütfi Zadənin vəfatı ilə əlaqədar rəsmi başsağlığı verib.

## GÜRCÜSTAN VƏTƏNDAŞLIĞINI ALMAQ ÇƏTİNLƏŞƏCƏK

Gürcüstan prezidenti Georgi Marqvelaşvili vətəndaşlıq verilməsinə ciddi yanaşmağa çağırıb.

Prezident administrasiyasının başçısı Georgi Abaşişvili deyib: "Gürcüstan vətəndaşlığına tələb artdığı bir vaxtda böyük ehtiyatlılıq nümayiş etdirmək, habelə vətəndaşlıq verilməsi ilə əlaqədar üsulları təkmilləşdirmək gərəkdir. Buna uyğun olaraq sentyabrın 1-dən Gürcüstan prezidentinin qərarı ilə istisna qaydada vətəndaşlıq verilməsi qaydaları daha da təkmilləşdirilir".

Dövlət başçısının tapşırığı ilə Abaşişvili Ədliyyə Nazirliyi və Dövlət Təhlükəsizlik Şurası ilə müvafiq məsləhətləşmələr aparmağa başlayıb.

Abaşişvili qeyd edib: "Prezident cəmiyyət üzvlərinin vətəndaşlıq verilməsi prosesinə cəlb olunmasını vacib sayır".

## SENTAYABRIN 1-DƏN GÜRCÜSTANDA İSTANBUL KONVENSİYASI QÜVVƏYƏ MİNİR



Sentyabrın 1-dən Gürcüstanda Avropa Şurasının "Qadınlara qarşı zorakılığın və məişət zorakılığının önlənməsi və kökünün kəsilməsi haqqında" Konvensiyası qüvvəyə minir. Bu konvensiya həm də İstanbul Konvensiyası kimi tanınır.

Gürcüstan Xarici İşlər Nazirliyinin məlumatına görə, bu Konvensiyanın fəaliyyətə başlaması Gürcüstanda qadın hüquqlarının möhkəmlənməsi və daha yaxşı qorunması yolunda irəliyə doğru atılmış mühüm addımdır. Konvensiya qadınlara münasibətdə və ailədə zorakılıqdan müdafiəni hüquqi və institusional cəhətdən keyfiyyətcə də yaxşılaşdıracaq.

İstanbul Konvensiyası qadınların zorakılığın bütün formalarından müdafiəsinə, qadınlara qarşı zorakılığın vaxtında qabağının alınmasına, təhqiqatına və kökünün kəsilməsinə, habelə qadınlara qarşı diskriminasiyanın bütün formalarına və məişət zorakılığına yönəlmiş məcburi beynəlxalq sənəddər. Konvensiya zorakılıq qurbanı olan qadınlara da xüsusi diqqət ayırır. Konvensiya Avropa Şurasına üzv olan 24 ölkədə fəaliyyət göstərir.

Xatırladaq ki, İstanbul Konvensiyasının effektiv tətbiqi məqsədilə Gürcüstanın icraedici və qanunverici hakimiyyəti bir sıra mühüm qanun dəyişiklikləri hazırlayaraq qəbul edib.

## GÜRCÜSTANDA ƏN AZ MAAŞ ALANLAR TƏHSİL SAHƏSİNDƏ ÇALIŞANLARDIR

Gürcüstanda ən azmaaşlı sahə təhsil sahəsidir. Bunu ölkənin Milli Statistika Xidmətinin məlumatları da təsdiqləyir.

Son on ildə Gürcüstanda ən azmaaşlı beş peşənin siyahısı dəyişməz olaraq qalır.

Təhsil işçilərinin aylıq gəliri orta hesabla 563,9 lari təşkil edir. 2007-ci ildə isə onların aylıq gəlirləri 150 lari təşkil edirdi.

Kənd təsərrüfatı, ovçuluq və meşə təsərrüfatı sahəsində çalışanların orta aylıq qazancı 657,9 laridir. On il qabaq isə onların gəlirləri 200 lari idi.

Mehmanxana və restoranlarda işləyənlər aylıq 740,7 lari gəlirə malikdirlər. 2007-ci ildə onlar 220 lari maaş alırdılar.

Kommunal, sosial və fərdi xidmət sahəsində çalışanlar 781,9 lari maaş alırlar. On il əvvəl onların qazancı 240,9 lari təşkil edirdi.

Emal sənayesində işləyənlər ayda 826,1 lari qazanc əldə edirlər. On il qabaq isə onların maaşları 316 lari idi.

## GÜRCÜSTAN PREZİDENTİ BEYNƏLXALQ AGİLE SPİRİT HƏRBİ TƏLİMLƏRİNİN AÇILIŞINI EDİB



Gürcüstan prezidenti Georgi Marqvelaşvili sentyabrın 3-də Axalsixedəki Orpolo təlim poliqonunda Agile Spirit 2017 beynəlxalq hərbi təlimlərinin açılışını edib.

Hərbiçilərə müraciətində Marqvelaşvili qlobal sabitliyin və təhlükəsizliyin qorunmasında Gürcüstanın mühüm rolunu vurğulayıb.

Prezident deyib: "Ölkəmizin ərazisinin işğal olunmasına baxmayarq, biz qlobal sülhün dərinləşməsi prosesinə böyük məsuliyyətlə yanaşan ölkəyik. Biz uzun illər ərzində ölkəmizin və qlobal təhlükəsizliyin möhkəmlənməsi uğurunda öz həyatından keçən insanların qarşısında baş əyirik. Müstəqilliyimizin ilk günündən, Gürcüstanda hibrid müharibə və vətənimizin parçalanmasına mütəşəkkil cəhd olunduğu bir vaxtda gürcü sülhməramlıları bizim üçün vacib olan dəyərlərin möhkəmləndirilməsinə fəal şəkildə qoşuldular. Bu gün bizimlə yanaşı dostlarımız və tərəfdaşlarımız dayanıb. Bu gün Gürcüstanın qorunmasının təmin edilməsi üçün irəliyə doğru daha bir addım atılır".

Xatırladaq ki, Gürcüstan prezidenti təlimlərin açılış mərasiminə müdafiə naziri Levan İzoriya, Prezident administrasiyasının rəhbəri Georgi Abaşişvili, MTŞ-in katibi David Rakviaşvili və Baş Qərargahın nümayəndələri ilə birlikdə qatılıb.

## BTQ-NİN AZƏRBAYCAN VƏ GÜRCÜSTAN HİSSƏSİ İSTİFADƏYƏ HAZIRDIR

Bakı-Tbilisi-Qars dəmir yolunun Azərbaycan və Gürcüstan hissəsi istifadəyə tam hazırdır. İlin əvvəlində bəzi çatışmazlıqlar var idi. Artıq onlar da aradan qaldırılıb və işlər başa çatdırılıb". Bu sözləri Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf nazirinin müavini Giorgi Çerkezeşvili söyləyib.

"Biz Azərbaycanın birbaşa iştirakı, eləcə də Azərbaycan sərmayəsi hesabına bir sıra vacib layihələr həyata keçiririk. Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi də bunlardan biridir. Bu layihə bizə Avropaya birbaşa çıxışla yanaşı, iqtisadi artım, insanlarımıza rahatlıq gətirəcək.

Bir sözlə, bu layihənin necə böyük əhəmiyyətə malik olduğunu yaxşı başa düşürük. Artıq Azərbaycanda və Gürcüstanda BTQ dəmir yolunun keçdiyi bütün yerlərdə lazım olan infrastruktur yaradılıb, kommunikasiya qovşaqları qurulub. BTQ-nin Azərbaycan və Gürcüstan hissəsi tam hazırdır. Türkiyə tərəfi də artıq işləri başa çatdırmaq üzrədir. Bizə böyük dividendlər gətirəcək dəmir yolunu deyilən vaxtda istifadəyə verə biləcəyik", - Giorgi Çerkezeşvili deyib.

Nazir müavininin sözlərinə görə, sentyabrın sonunda BTQ üzrə işçi qrupunun növbəti görüşü keçiriləcək.

## BAKI, TBİLİSİ VƏ ANKARA REGİONDA MÜNAQİŞƏLƏRİN TEZLİKLƏ TƏNZİMLƏNMƏSİNƏ TƏRƏFDARDIR



Bakı, Tbilisi və Ankara regionda mövcud olan münaqişələrin siyasi tənzimlənməsinin sürətləndirilməsinə tərəfdardır.

Azərbaycan, Gürcüstan və Türkiyə xarici işlər nazirlərinin Bakıda qəbul etdikləri birgə bəyanatda deyilir: "Regionda davam edən münaqişələr regonal sülhə, sabitliyə və inkişafa zərər vurur və beynəlxalq hüquq prinsipləri əsasında öz siyasi həllini tapmalıdır".

Üç ölkənin XİN-nin başçıları dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığına hörmət və dəstək ifadə ediblər.

Xarici siyasət idarəsinin başçıları vurğulayıblar: "Dağlıq Qarabağ regionunda və Azərbaycanın ona bitişik regionlarındakı və Gürcüstandakı münaqişələrin beynəlxalq hüququn norma və prinsipləri əsasında, xüsusilə dövlətlərin suverenliyinin, ərazi bütövlüyünün, beynəlxalq səviyyədə tanınmış dövlət sərhədlərinin toxunulmazlığını qorumaqla, habelə BMT, ATƏT və AŞ tərəfindən qəbul edilmiş qətnamə və qərarlara uyğun olaraq tezliklə tənzimlənməsinin gərəkliliyini bir daha bəyan edirik".

Azərbaycan, Gürcüstan və Türkiyə XİN-nin başçıları terrorizm, ekstremizm və separatizmin bütün forma və təzahürlərini kəskin şəkildə qınayıblar.

## GÜRCÜSTAN KİBERTƏHLÜKƏSİZLİK REYTİNQİNDƏ İKİNCİDİR

Gürcüstan qlobal kibertəhlükəsizlik indeksində ikinci yeri tutub. Gürcüstan Ədliyyə Nazirliyinin məlumatına görə, bu, Milli Kibertəhlükəsizlik İndeksinin (NCSİ) Avropa Birliyinin sifarişilə 29 ölkədə keçirdiyi araşdırmalardan sonra bəlli olub.

Bu göstəriciyə əsasən Gürcüstan Şərq Tərəfdaşlığı ölkələri arasında birincidir və AB-nin Almaniya, Niderland Krallığı, Latviya, Litva, Polşa və Danimarka kimi ölkələrini geridə qoyur.

İndeks dövlətin kiber və informasiya təhlükəsizliyi sahəsində 12 istiqamətdə həyata keçirdiyi tədbirləri qiymətləndirir. Ölkənin kibertəhlükə və hücumu qabaqlamaq və genişmiqyaslı kiber böhranlardan qorunmaq məsələlərində hazırlığını yoxlayır. Diqqətəlayiqdir ki, Gürcüstan heç bir istiqamətdə sıfır qiymət almadığına görə istisnalıq təşkil edir.

Qlobal kibertəhlükəsizlik indeksi Estoniyanın Elektron İdarəetmə Akademiyası tərəfindən hazırlanıb.

Beynəlxalq Telekommunikasiya Birliyinin kibertəhlükəsizlik indeksində Gürcüstan Avropada 2-ci, beynəlxalq səviyyədə isə 8-ci yeri tutub.

## *GÖZÜNƏ GÜN DÜŞƏN ELÇİN HÜSEYNBƏYLİ (metonimiya misalı)*



İBRAHİMXƏLİL

**Tarixi şəxsiyyətlərlə bağlı bizi məktəbdə az qala tarixi "düstur"larla öyrədirdilər: sən demə, onlar – yəni tarixi şəxsiyyətlər "mənafelər şəbəkəsində... zəmanə "qarı"nın nəbzini həssaslıqla duymuş, axarı düzgün məcraya yönəltməyə qadir olmuşlar". Və sairə və ilaxır... Bu tarixi "düstur"ları uzatsaq, Zəncan – Ərzincan, Dərbənd – Səmərqənd nədir, epiloqun uzunluğu bəlkə də Çingiz xanın gizli saxlanılan qəbrinə qədər gedib çıxardı...**

Bədii ədəbiyyatın yüz bir dəyərindən ən əsası insanşünaslıq olduğuna görə, tarixi şəxsiyyət övladının gözünə mil çəkdirəndə də, adam başından hasar tikdirəndə də, arada-sırada yoxsullara kisə-kisə qızıl payladıb zərxaraya bürüdəndə də tarixi əsər müəllifi hamını mərhəmətə və sülhə səsləmiş, adəmiliyə-bəşəriliyə dəvət etmişlər. Bunu görmək üçün Yuli Sezar, Əmir Teymur, yaxud Napoleon haqqında yazılmış kitabları oxumaq da kifayətdir.

...amma arazbarı sözümün toz-tozanaq təkrarı təkcə bunda deyil.

Ədəbi təxəllüsü bizim Əyriqar tərəflərə də çox yaraşan yazıçı dostum, Qaraçuxa Elçin Hüseynbəylinin "Şah Abbas" romanı çapdan çıxan kimi, bundan əvvəl Vaqif Bayatlının "Yupyumru bir eşq ilə", Qoderzi Çoxelinin "Küknarlara məktub" və Əlabbasın "Qiyamçı" adlı kitablarını ərməğan edən bakılı köhnə dostlarımdan biri bir həmyerlimizdən – avtomobilin ehtiyat hissələri üzrə bietimad "bəzirganbaşı"ndan xahiş edir ki, zəhmət olmasa, bu kitabı İbrahimxəlilə çatdırarsan. Amma "Şah Abbas" gəlib çıxmadı. Sonralar danışırdılar ki, bəs deməzsənmi, ayar dostlarından biri "bəzirganbaşı"nın qulağını doldurur ki, roman olsa da "Şah Abbas" Gürcüstanda arzuolunmazdır; üstündə səni incidərlər, tulla sərhəddə qalsın. Hər nə isə... Bu payızağzı kitabı mənə uşaqlıq dostum, şair Elman Səmədoğlu gətirdi.

Deyim ki, Qaraçuxa Elçin Hüseynbəyli vaxtilə "İnsan haqları yay məktəbi"nin məzunu olub və hesaba alanda ki, indiki Gürcüstan hüquq dövlətidir, bu halda – misilləmə misal üçün – nə Yavuz Sultan Səlim, nə II Yekaterina, nə də Şah Abbas haqqında olan kitablardan kiməsə bir ziyan dəyəcəyinə əmin deyiləm.

...Bu yaxınlarda akademik Nizami Cəfərovun Tiflisdə gürcücə nəşr olunmuş kitabının təqdimatında Elçinlə görüşdüm. Onun böyük adaşı Elçin (Əfəndiyev) bir xatirəsində yazır ki, "atam (İlyas Əfəndiyev) soruşdu ki, əgər islam qanunları imkan versəydi, peyğəmbər roluna sən deyərdin ki, kimi çəksinlər?" Elçin də tərəddüd etmədən cavab verir: "Vaqif Cəbrayılzadəni".

Eynən həmin yarıalmatək oxşar minvalla, mən Qaraçuxa Elçin Hüseynbəylini Şeyx Sənan rolunda arazbarı-arazbarı çox alqışlayardım. Bilirsənmi niyə?..

Çünki Elçin Hüseynbəyli bəsirət və həsrət dolu yazılarında o boyda "eşq kafəri"dir! Onun Kürü, Sənan dağını, Tiflisin adamlarını və ağaclarını, gözünə gün düşən günəbaxanlarını necə sevgilərlə seyr etdiyini görmüşəm. Pozitivlər və miras motivlərlə, "Bürəmi"lərlə və "Yovşan qağayılar"la, "Qumru"larla limhəlim Qaraçuxa!..

Vahid Vəhdət dünyasında bir məmləkətdə qəhrəman sayılan digər ölkədə sayrı-saman da sayıla bilir. Elçin Hüseynbəyli ayrı-seçkiliyin, matməəttəl məzhəbçiliyin, məsuliyyətsiz müxalifliyin necə bəlalar doğurduğunu, dərdin necə balaladığını yaxşı bilir. Onun "fəth üsulları"nda, onun "imperiyası"nda dodaqbadodaq duyğular hakimdir! Sirr paylaşılmaz, amma sənə bir sirr də açım: onun iki hekayəsini – "Gözünə gün düşür"ü və "Firuzə qaşlı xəncər"i Sınıq körpünün bəri üzündə, Əyriqarın ətəklərinə yaxın, yazıçı dostum Əlabbas demiş, "Qaratel"ə də oxumuşam.

Elçin Hüseynbəylinin bir "Sizin yeriniz Salyandı" adlı yazısı var. O, Tiflisdən, bizdən ayrılanda dedim:

– Sənin yerin Sənan dağıdır, qardaş!

Gülümsədi. Həm də sanki gözünə gün düşürdü; ədəbiyyat adlı günəşin gözə və künülə düşməyinin bir ayrı zövqü var!..

...Bilirəm ki, savab və səxavət salamlarımızı dostlara, Xəzərə və "Rəqs edən oğlan"a çoxdan çatdırıb Qaraçuxa Elçin Hüseynbəyli.

P.S.

**...Mirzə Qələmlə birlikdə cibimizdə bir abbası (iyirmi qəpik), bir şahı (beş qəpik) olmadığı vaxtlarda Sınıq körpünü sınıq-salxaq keçdiyimiz vaxtlar yadıma düşür. Bütün bunlara rəğmən, biz eynən Elçinin "Gözünə gün düşür" hekayəsinin qəhrəmanı misallı, sülh ağacı əkməyə həmişə hazır idik!..**



## ARAKAN QIRĞINININ ƏSAS MƏQAMLARI BARƏDƏ BİR NEÇƏ SÖZ

Sahib MUSTAFA
*sahib1975.sm@gmail.com*

**XXI əsrdə bir etnosun milli mənsubiyyətinə görə kütləvi surətdə məhv və ya sürgün edilməsi utancverici hadisədir. Myanmada yaşayan müsəlmanlar bu gün məhz belə bir təhlükə ilə üz-üzə qalmışlar. Cənub-Şərqi Asiyada yerləşən Myanmadakı olaylar sırf etnik-dini zəmində baş verir. Bu ölkədə yaşayan bir milyondan çox müsəlman-rohinca etnik qrupu hökumət qüvvələrinin yardım etdiyi budditstlər tərəfindən şiddət və işgəncələrə məruz qalaraq amansızcasına məhv edilir, yaşayış məntəqələri yandırılır.**

Rohinca müsəlmanları tarix boyu Myanmanın Banqladeşlə həmsərhəd bölgəsi olan Arakanda məskunlaşmışlar. Əhalisinin əksəriyyəti buddizmə sitaiş edən myanmalılar isə Arakan vilayətini öz dinləri üçün müqəddəs bölgə hesab edirlər. Arakanlı müsəlmanlar uzun illərdən bəri çoxsaylı repressiyalara məruz qalmışlar. Hətta, mərkəzi hakimiyyət rohinca müsəlmanlarının qeyri-leqal yollarla Banqladeşdən gəldiklərini bəhanə gətirərək, onları vətəndaşlıq kimi təbii hüquqlardan da məhrum etmişdir. Əslində isə belə bir akt irəliyə hesablanmış bir disskriminativ milli siyasətin nəticəsidir. Çünki, demoqrafik baxmdan rohinca-müsəlmanlarının təbii artımı yüksək göstəriciyə malikdir. Belə ki, hər rohinca ailəsində ortalama 8-10 uşaq dünyaya gəlir. Görünür ki, ölkədə müsəlmanların artım tendensiyası Myanma hökumətini dərindən narahat etməkdədir.

2012-ci ildə baş verən ilk toqquşmalarda 100 mindən çox Arakanlı müsəlman Banqladeşə sığınmağa məcbur qaldı. Cari ilin avqust ayının sonundan başlayan qətliamda isə rəsmi rəqəmlərə görə 400-dən çox dinc rohinca qətl edilmiş, 100 mindən artıq müsəlman isə qonşu Banqladeşə üz tütmüşdür. Hal-hazırda Myanmada müsəlmanlara qarşı bir insanlıq dramı yaşanmaqdadır. BMT Baş Katibi Antoniu Quterreş Arakan hadisələrini qətliam adlandırsa da, dünya birliyinin baş verən olaylara yetərli təpki verməməsi isə üzücü faktdır. Myanma hökuməti zərərçəkənlərə humanitar yardımların göstərilməsinə belə süni əngəlliklər yartmaqdadır. Rohincalara qarşı qətliamların tüğyan etdiyi ölkənin rəsmi dairələri isə qərəzli açıqlamalar verərək, sanki dünya birliyini çaşdırmaq niyyətindədir. Guya, Myanma hökümət qüvvələri "Arakan Rohinca Xilaskar Ordusu"na qarşı əməliyyat keçirir və həlak olanlarsa sırf separatçı yaraqlılardır. Ölkə rəhbərliyi adıgedən qruplaşmanı beynəlxalq terror təşkilatları ilə əməkdaşlıqda suçlayır. Əslində, hakimiyyət tərəfindən beynəlxalq təşkilat və jurnalistlərin bölgəyə girişinin qəti surətdə yasaqlanması əsl reallığı dünya ictimaiyyətindən gizlətməkdir. Myanmalı Nobel mükafatı laureatı, uzun illər demokratiya və insan hüquqları carçısı, hal-hazırda bu ölkənin xarici işlər naziri, prezidentin müşaviri Aun San Su Çji də müsəlmanların qətliamına seyrçi qalmaqdadır.

Başda ABŞ və Avropa ölkələri olmaqla Qərb dünyasının Arakanda baş verən hadisələrə susqun qalması ikili standart siyasəti kimi dəyərləndirilməlidir. Çünki, Myanma və Arakan olayları beynəlxalq güclərin maraq dairəsinə daxil deyil. Əks-təqdirdə uzun illər hərbi xunta tərəfindən idarə olunmuş ölkəyə demokratiya transferi adı ilə Qərb dünyası müdaxilə etmiş olardı. Myanma müsəlmanlarının qətliama məruz qalmasına yalnız Türkiyə və Çeçenistan ciddi reaksiya verdi. Türkiyə tərəfi rohinca müsəlmanlarının Banqladeş ərazisində yerləşdirilməsi üçün bu ölkəyə müraciət etdi və sığınacaq da daxil olmaqla hər cür humanitar yardım göstərəcəklərinə hazır olduğunu bildirdi. Münaqişədən əziyyət çəkən insanlara Azərbaycanın da humanitar yardım etməsini qeyd etmək yerinə düşər. Çeçenistan lideri Ramzan Kadırov məsələyə ciddi reksiya verilməsi üçün Putinə muraciət etmişrdir.

**Görünən odur ki, Arakan müsəlmanlarının buddistlər tərəfindən repressiyaya məruz qalması sonuncu rohincanın Myanmadan sürgün edilməsinədək davam edəcəkdir. Dünya birliyi isə müsəlmanlara qarşı törədillən zillətin önündə növbəti dəfə boynubükük qalacadır.**

## BMT-DƏ İSLAHATLAR GÖZLƏNİLİR

ABŞ lideri Donald Tramp sentyabrın 18-də BMT-nin islahatı ilə bağlı dünya liderləri ilə görüşmək niyyətindədir.

Əgər dünya liderləri BMT-nin Baş katibi Antoniu Quterreşə təşkilatda "effektiv islahatlara başlamaq" müraciətilə on bənddən ibarət bəyannaməni imzalayarlarsa, onda onlar görüşə dəvət olunacaqlar.

Bəyanat layihəsində vurğulanır: "Biz humanitar yardım üzrə işi daha yaxşı əlaqələndirmək, dinc təşəbbüsləri inkişaf etdirmək və qorumaq üçün BMT çərçivəsində konkret dəyişikliklərin edilməsinə dair baş katibin səylərini dəstəkləyirik".

Xatırladaq ki, sentyabrda ABŞ prezidentinin BMT Baş Assambleyasında çıxışı gözlənilir.

Qeyd edək ki, sentyabrın 12-də BMT-nin 72-ci Baş Assambleyası açılacaq. Sentyabrın 19-dan isə yüksək səviyyədə ümumi siyasi məsələlərin müzakirələrinə başlanılacaq.

## ƏMİNƏ ƏRDOĞAN ROHİNCA QAÇQINLARINA BAŞ ÇƏKİB

Türkiyə dövlət başçısı Rəcəb Tayyib Ərdoğanın həyat yoldaşı Əminə Ərdoğan Banqladeşdəki Rohinca qaçqınlarının düşərgəsinə gedib.

Banqladeş səfərində Əminə xanımla yanaşı oğlu Bilal Ərdoğan, Ailə və Sosial Siyasət naziri Fatma Betül Sayan Kaya, Xarici İşlər naziri Mövlud Çavuşoğlu, İstanbul millət vəkili Ravza Kavakcı Kan, TİKA-nın sədri Serdar Çam, Türkiyə Qızıl Ay Cəmiyyətinin direktoru İbrahim Altan və qeyri-hökumət təşkilatlarının nümayəndələri də iştirak ediblər.

Əminə Ərdoğan və onu müşayiət edən nümayəndə heyəti arakanlı qaçqınların Bangladeşdə sığındıqları Kutupalonq düşərgəsinə baş çəkib.

Zərər çəkmiş insanlarla görüşən Türkiyə dövlət başçısının həyat yoldaşı onlardan baş vermiş hadisələrlə bağlı məlumat alıb və düşərgədə sığınacaq tapmış Arakan müsəlmanlarına yardım paylayıb.



Əminə Ərdoğan buradan beynəlxalq ictimaiyyətə müraciət edib: "Hamımızın oğul-uşağımız var. Buna görə hamımız məsuliyyət daşıyırıq. Buraya bunun üçün gəlmişik. Dünyaya eşitdirmək üçün gəlmişik. Yardım üçün gəlmişik. Lütfən, hər kəs əlindən gələn hər şeyi etsin".

## MAYKL PENS: BİZ TERRORİZM TƏHLÜKƏSİNİ YER ÜZÜNDƏN SİLƏCƏYİK

ABŞ beynəlxalq terrorizmlə qəti qələbəyədək mübarizə aparmaq niyyətindədir. Bunu sentyabrın 11-də ABŞ-ın vitse-prezidenti Maykl Pens Şenksvilldə (Pensilvaniya ştatı) 2001-ci ilin 11 sentyabr terror qurbanlarının xatirəsinə həsr olunmuş tədbirdə bəyan edib.

16 il əvvəl terrorçuların ələ keçirdiyi dörd təyyarədən biri Şenksvill ətrafında düşmüşdü. Təyyarələrdən ikisi isə Nyu-Yorkda Beynəlxalq Ticarət Mərkəzinin qüllələrinə, digəri isə Pentaqonun binasına çarpılmışdı.

O, deyib: "Biz bu, şərin yenidən sərhədlərimizi keçməməsi üçün mümkün olan hər şeyi edirik. Biz terrorizm təhlükəsini yer üzündən siləcəyik".

Şenksvilldə ucaldılan memorial "Səslər qülləsi" adlanır. Onun əsas elementi qəzada həlak olmuş təyyarənin 33 sərnişininin və 7 ekipaj üzvünün rəmzi olan, külək altında cingildəyən 40 konstruksiyadan ibarət 28 metrlik qüllədir. Xatirə kompleksi tikintisinin 2018-ci ilin sentyabrında tamamlanması nəzərdə tutulur.

## NATO TƏLİMLƏRİNİN SAYINI ARTIRIR

Sentyabrın 10-da Latviya Milli Müdafiə Akademiyasında NATO-nun Steadfast Pyramid 2017 və Steadfast Pinnacle 2017 təlimləri başlayıb. Təlimlərdə NATO-ya üzv ölkələrin və NATO-ya tərəfdaş ölkələr olan Finlandiya və İsveçin 40-dan çox böyük və yüksək çinli zabitləri iştirak edirlər.

Təlimlərin məqsədi yüksək səviyyəli zabit və komandirlərin birləşmiş əməliyyatları planlaşdırmaq və onlara rəhbərlik etmək qabiliyyətlərini təkmilləşdirməkdən ibarətdir.

Steadfast Pyramid 2017 təlimlərin birinci hissəsidir və sentyabrın 15-dək davam edəcək. Təlimlər müttəfiqlərin Avropa qüvvələrinin ali baş komandanlığı və NATO-nun Müttəfiq Transformasiya Məsələləri komandanlığı tərəfindən keçirilir.

Steadfast Pinnacle 2017 təlimlərin ikinci hissəsidir və sentyabrın 17-22-də keçirilməsi planlaşdırılır. Bu təlimlər əməliyyat səviyyəsində komandirlərin roluna həsr olunacaq.

Steadfast Pyramid və Steadfast Pinnacle təlimləri Latviyada 2011-ci ildən keçirilir.

Sentyabrın 8-də Petra Franko adına taktiki aviasiya briqadası aerodromunun bazasında Ukrayna-ABŞ Rapid Trident-2017 komanda-qərargah təlimlərinin birinci mərhələsi başlayıb.

## BÖYÜK BRİTANİYADA QADINLAR HƏRBİ-HAVA QÜVVƏLƏRİNDƏ XİDMƏTƏ BAŞLAYIR

Böyük Britaniya qadınların Hərbi-Hava Qüvvələrinin bütün birləşmələrində xidmət aparmasına icazə verən ilk ölkə olub. Bu barədə Britaniya mətbuatı informasiya yayıb.

Qadınların düşmənlə təmas xəttində yerləşən bölgələrdə xidmət etməsi barədə qərarı ötən il keçmiş Baş nazir Devid Kemeron verib. 1 sentyabr tarixindən etibarən Britaniya Hərbi-Hava Qüvvələrinin yerüstü birləşmələrində qadınların xidmət aparması ilə bağlı müraciətlərin qəbuluna başlanılıb.

Iyul ayında Böyük Britaniyanın müdafiə naziri Maykl Fellon qərarın sentyabrın əvvəlində qüvvəyə minəcəyini açıqlamışdı. Yerüstü birləşmələrin əsas vəzifəsi Britaniya HHQ-ə məxsus bazaların təhlükəsizliyini təmin etməkdir. Hazırda qadınlar Britaniya Hərbi-Hava Qüvvələrinin təxminən 10%-ni təşkil edir.

# İSLAM FİTNƏ-FƏSAD DİNİ DEYİL, BARIŞ DİNİDİR

Son günlərdə Qərb dünyasının ana gündəmlərindən biri olan islamafobiya gedərək artmaqda, islam əleyhdarı qruplar və ifadələr çoxalmaqdadır. Bu fəaliyyətlərə, islam adına cihad etdiyini söyləyən adamlar və quruluşlar tərəfindən günahsız insanlara yönəldilən hücumlar da artmaqdadır. Bu sindrom içərisində sadə detektiv hadisələr belə əvvəlcə terror şübhələri ilə nəşr orqanlarında əks olunmaqdadır. Keçdiyimiz günlərdə İspaniyanın Barselona, Finlandiyanın Turku şəhərində reallaşan fərdi hücumlar ilə daha əvvəllər fərqli Avropa ölkələrində günahsız insanlara qarşı edilən silahlı və bombalı hücumlar, təməli barış və sevgi olan islamın adını çıxılmaqdadır. Barış və sağlamlığın adı terrorla birlikdə xatırlanmaqdadır. Avropa ölkələrində yaşayan bütün müsəlmanlar bu hücumlardan mənfi təsirə məruz qalır, onlara potensial terrorist kimi baxılmaqdadır. Bu imici meydana gətirənlər isə, əhatə edilmişlik psixologiyası ilə nümunə götürülməsi lazım olan Peyğəmbərin tətbiqlərini gözardı edərək, hücumlarına dini istinadlar verməkdədirlər. Qəti inanclılar olaraq bağlı olduqları dini terror qruplarının fikirlərini, pozğun və dindənkənar anlayışlarını hər platformada dilə gətirməyi davam etdirməkdədirlər. Halbuki Hz. Peyğəmbər (s.ə.s) müsəlmanı, əlindən və dilindən insanların etibarda olduğu kimsə kimi açıqlamaqda, müsəlmanların qardaş olduqlarını, bir-birlərinə zülm etmədiklərini, zalımlara da təslim etmədiklərini, bir-birlərinin ehtiyaclarını qarşıladıqlarını vurğulamaqdadır.

İslam ərəbcə barış, güvən, dinclik, xoşbəxtlik, sağlamlıq və təhlükəsizlik mənaları verən "silm" və "salam" kökündəndir. Salam, eyni zamanda Allahın gözəl adlarından biridir. Özündə daşıdığı mənayla İslam, sevgi və barış dinidir. Quran, Allahın inananları qəti şəkildə barışa çağırdığını, barışın xaricindəki yolların düşmən olan şeytanın ardınca getmək olduğuna işarə edərək, onun arxasından getməmələrini əmr edər (Bəqərə, 208). Toplumda sevgi və barışın yaradılması üçün qaydalar qoyar, bu qaydalara uyğun ictimai ədalət və ictimai barışın təmin ediləcəyini ifadə edər. Fərdi və ictimai haqq-hüququn güdülməsini əmr edər, bu qanunları həyatında əks etdirən müsəlmanı haqsızlıq etməyən və hər kəsin haqqını gözləyən kimsə olaraq açıqlayar. İnsanlar arasında balanslı və nizamlı bir həyat üçün bərabərlik və ədalətin təmin edilməsini istər, ictimai barış üçün bu faktları vurğulayar. İnsanlara fərqli davranmağı, bir qövmə-birliyə olan kin və düşmənliyə baxmayaraq, ədalətdən sapmağı qadağan edər. Təqvaya yaxın olanın ədalət olduğunu vurğular. İnsana dəyər verər, konstitusional haqların ən əhəmiyyətlisi olan "Həyat Haqqı"nın güdülməsini istər. Öldürməmə qanununu təməl qanun olaraq mənimsəyər, haqsız və qəsdən cana qıyanların Allahın lənətinə və qəzəbinə layiq olduqlarını vurğular. Maidə surəsində bir adamı öldürmənin bütün insanları öldürmə kimi, yaşatmanın da bütün cəmiyyəti yaşatma kimi olduğuna vurğu edər. Allahın yaratdığı ən qiymətli varlıq olan insanın nə özünü, nə də başqasını öldürməsini haqlı səbəb sayılan döyüş və cəza xaricində qəbul etməz.

İslam kini, nifrəti, hirsi, təzyiqi, şiddəti, terroru, cinayəti, cəmiyyətin fəsadına səbəb olan hər cür əxlaqsızlıq və pisliyi qadağan etməkdə, bunları həyata keçirənləri cəmiyyət nizamını pozan kəslər olaraq ittiham etməkdə, ən ağır bir cəza ilə də cəzalandırmaqdadır. Bu mənfi davranışların yerinə hörmət, sevgi, qardaşlıq, haqlara riayət, vəfa, yaxşılıq və yaxşılıqda yardımlaşmağı əmr etməkdədir. Ən çox dəyəri insana, onun varlıq və həyat haqqına verməkdədir. Zülm, işgəncə,



cinayət və terroru da insanlıq cinayəti kimi görməkdədir. Məlumatı ön plana götürməyi, dayaz düşüncə və sorğusuz bağlılığı rədd etməkdədir. Quran və sünnəylə təyin olunmuş bu qanunların varlığına baxmayaraq, adına cihad deyilərək təkbirlər yoldaşlığında İŞİD, əl-Qaidə, Taliban, Boko Haram, Əbu Seyyaf kimi təşkilatlar tərəfindən işlənən cinayətlərin İslamın əmri kimi göstərilməsi, adı çirkləndirilərək İslama qarşı işlənmiş bir cinayətdən kənara getməməkdədir.

İctimai barış və sevgini təmin etmək inanc və düşüncə azadlığı ilə həyat haqqına hörmət göstərməklə, insanlara şəfqət və mərhəmətlə davranmaqla, gözəl əxlaqı cəmiyyətə hakim etməklə, xüsusilə də bağışlayıcı olmaqla əlaqədar əmrləri həyatda əks etdirməklə reallaşar. Quran insanın yetkinliyini və varlıqların nizamını gözəl əxlaq üzərində qurmuş, bunun tamamlayıcısı olaraq da Hz. Peyğəmbərin (s.ə.s.) göndərildiyini ifadə etmişdir. Bir inanc adına terror hərəkətləri etmək, cinayət işləmək, işgəncə etmək, insan öldürmək bu inanca böhtan atmaqdır. Bilvasitə olaraq da, Allaha qarşı gəlmək və Onun dininin hismini çirkləndirməkdir.

Quran terroru lənətləmiş, anarxiyanı və fitnəni ən dəhşətli bir hadisə olaraq xarakterizə etmişdir. İslamiyyət hər cür terror, zülm və xəyanəti qadağan edir, təxribata qarşı çıxır. İslamiyyət, pisliyə pisliklə cavab verməz. İslam dini ədaləti təsis etmək, nəfin istəklərini qırmaq və insan vicdanını etidal halına gətirmək üçün Allah tərəfindən göndərilmişdir. Bu səbəblə İslam bu mövzuda çox həssasdır. Belə ki, Quran haqsız olaraq bir cana qıymağı, qan axıtmağı bütün insanlıq aləminə qarşı işlənmiş ən dəhşətli bir cinayət kimi xarakterizə etməkdədir.

Necə ki, Cənabı Haqq : "Hər kim ki, bir kimsəni öldürməmiş (bununla da özündən qisas alınmağa yer qoymamış) və yer üzündə fitnə-fəsad törətməmiş bir şəxsi öldürsə, o, bütün insanları öldürmüş kimi olur. Hər kim də bir insanı diriltsə (ölümdən qurtarsa), o, bütün insanlığı diriltmiş kimi olar." (Maidə, 32) buyurmaqdadır. Quran terrorla birgə hər cür fitnə-fəsadı da lənətləmişdir. Qurani Kərim fitnə çıxaran, cəmiyyət həyatında fitnəyə səbəb olan və rəhbərliyə keçdiyi zaman da fitnə toxumları əkənlərin şərlərinə diqqəti çəkmiş, fitnənin dəhşətini açıq bir şəkildə ortaya qoymuşdur : "O yer üzündə iş başına keçdimi, orada fəsad çıxarmağa, əkini və nəsli kökündən qurutmağa yönələr. Allah fəsadı sevməz" (Bəqərə 205)

Quran fitnəni qadağan etmişdir. Bir ayətdə Cənabı Haqq :"Fitnə, zülm və təzyiq adam öldürməkdən daha qorxuncdur" (Bəqərə, 217 ) buyurmaqdadır.

Quranın bu kimi ayələrindən tam istifadə edən bir müsəlmanın ruhunda düşmənlik, kin, vəhşilik olmaz. Ən böyük düşməniylə belə bir yöndə səmimiyyəti vardır. Mömin "Yaradılanı xoş gördük, Yaradandan ötəri" həqiqətini qəbul edər. Mömin söhbət fədaisidir. Hüsumətə vaxtı yoxdur. Cənabı Haqq Qurani Kərimdə, bir qisim insanların zərərlərinin digər qisim insanlar tərəfindən qarşılanması nəticəsində məbədlərinin zərərlərdən qorunduğunu ifadə edərək, insanların diqqətlərini zərərlərin önlənməsinə çəkməkdədir: ".... Çünki, Allah insanları bir-birlərinə qarşı müdafiəsiz buraxsaydı, şübhəsiz o zaman, içlərində Allahın adının çox xatırlandığı monastırlar, kilsələr, sinaqoqlar və məscidlər (çoxdan) yıxılıb getmiş olardı" (Həcc, 40).

Hz. Məhəmməd (s.ə.s), rəhmət və şəfqət peyğəmbəridir. Qurani Kərimdə Cənabı Haqq: "(Rəsulum!) Biz səni ancaq aləmlərə rəhmət olaraq göndərdik" (Ənbiya,107) buyurmaqdadır. Hz. Peyğəmbər, gözəl əxlaqın bütün qisimlərini həyatında ən gözəl bir şəkildə həqiqətən sərgiləmiş, həyatı boyunca səhabələrini fitnədən çəkindirmişdir. Fövqəladə bir ciddilik və həssaslıq ilə fitnədən çəkinməyi əmr etmişdir: "Fitnədən çəkinin! Çünki o əsnada dil, qılınc zərbəsi kimidir." (İbni Macə, Fiten,24 ) "Bu bir gerçəkdir ki, bir fitnə, bir ayrılıq və bir ixtilaf olacaq. Bu vəziyyət baş verincə qılıncını alıb Uhuda get! Qırılana qədər onu daşa vur. Sonra evinə qayıdıb, evində dur. Hətta sənə günahkar bir əl və ya ölüm gələnə qədər (evindən çıxma)" (İbni Macə, Fiten, 24)

Görüldüyü kimi İslam dini terroru və insanlığa qarşı olan hər cür pisliyi qadağan edir. Ancaq bu gün müsəlmanlar terrorçu kimi tanıdılmaqdadırlar. Gəlin dünyada baş verənlərə nəzər salaq, baxaq, görək terror hadisələri harada və kimə qarşı törədilir. Açıq-aydın ortadadır ki, zülmə məruz qalan, evləri yandırılan və vətənlrindən didərgin düşənlər müsəlmanlardır.

Fələstin, İraq, Suriya, bu gün də Arakandakı müsəlmanlar zülüm görməkdədir. Ancaq insan haqlarından danışan istər Avropası, istər BMT-si və ya başqa təşkilatı olsun susur. Bəs hanı bunların haqları? Bunlar insan deyillərmi? İnsan azadlığı, vicdan azadlığı deyərək küçələrdə bağıranlar bir az da olsa utancdan qızarırlarmı?

Hacı BƏKİROĞLU

# HƏRBİ GÜC İNDEKSİ-2017-DƏ GÜRCÜSTAN 82-Cİ YERƏ TUTUR

Global Firepower portalının qiymətləndirməsinə görə, Gürcüstan 133 ölkə arasında 82-ci yeri tutur.

Araşdırmaya əsasən, 2017-ci ildə olan vəziyyətə görə Gürcüstanın 42 helikopteri (onlardan 11-i zərbə helikopteridir), 11 zərbə, 32 nəqliyyat və 13 təlim təyyarəsi var. Gürcüstan silahlı qüvvələri 220 tanka, 265 reaktiv qumbaraatana, 230 yedək və 118 özüyeriyən artilleriya qurğusuna malikdir.

Ölkənin silahlı qüvvələri 35 825 nəfərdən ibarətdir və bunun da 5,5 min nəfəri ehtiyatda olanlardır.

Reytinqdə Gürcüstanın dənizə çıxışının olduğu da qeyd edilir. Dəniz sahilinin ümumi uzunluğunun 310 kilometr təşkil etməsinə baxmayaraq, ölkədə donanma inkişaf etməyib. Gürcüstan sahil xəttinin mühafizəsi üçün cəmi dörd gəmiyə malikdir.

Global Firepower İndex-in məlumatına görə, Gürcüstanın 1,9 milyon əmək qabiliyyətli vətəndaşı, iki əsas limanı və 22 aeroportu var. Quru yollarının ümumi uzunluğu 20 min kilometrdən, dəmir yollarının uzunluğu isə 1,6 min kilometrdən çoxdur.

Ölkənin müdafiə büdcəsi 380 milyon dollar, xarici borcu isə 13 milyard dollardan çoxdur.

Gürcüstan reytinqdə qonşularından 93-cü yeri tutan Ermənistandan öndədir. Hərbi gücünə görə, Cənubi Qafqazda 58-ci pillədə qərarlaşan Azərbaycan liderdir. Reytinqdə ilk onluğa düşən Rusiya ABŞ-dan sonra ikincidir, Türkiyə isə 8-ci pillədə qərarlaşıb.

Global Firepower İndex dünya dövlətlərinin ordusunu və ölkələrin hərbi gücünə birbaşa və dolayı təsir edən faktları dəyərləndirir.



Reytinqdə dövlətlərin nüvə potensialı, habelə qiymətləndirilən ölkənin hərbi və siyasi liderliyinin xarakteri nəzərə alınmır.



## ŞƏXSİ VƏ İCTİMAİ MÜNASİBƏTLƏRƏ DAİR DÜŞÜNCƏLƏR

Həmid SADIX

**İctimai münasibətlə şəxsi münasibətləri, şəxsi həyatla iş həyatını, ictimai həyatı, şəxsi parametrlərlə ictimai parametrləri qarışdırırıq, yəni ayrı-ayrı dəyərləndirmirik, ümumi qiymətləndiririk. Məsəl üçün, biz inanmaq istəmirik ki, bir adam pis ata ola bilər, ancaq onun həkimliyinə söz ola bilməz. Yəni biri haqqında soruşanda ki, o necə müəllimdi ? Deyəcək yaxşı müəllim olsa, qonşularıyla küsülü olmaz və ya necə yaxşı müəllimdi ki, oğlu qumarbazdı, avaranın biridi.**

Bir insan xasiyyətcə yaxşı ola bilər, amma işinin ustası olmaya bilər, digəri kobud, tipsiz ola bilər, amma yaxşı iş görər. Biz başa düşmək istəmirik ki, ortaya yaxşı nəticə qoymaq üçün ikincini seçməliyik və biz əksinə hərəkət edərək birincini seçirik.

Yaxşı vəzifəni qohumuna verirsən və tanımadığın mütəxəssis isə kənarda qalır, nəticədə özünə zərər verirsən, öz vəzifəni, öz işini təhlükə altında qoyursan.

İctimai həyatda, iş həyatında şəxsi mövqeyə üstünlük verirsənsə obyektivliyini itirirsən, bu, çəngəllə şorba , qaşıqla qayğanaq yemək kimi bir şeydi.

Üstəlik, bunun ucbatından öz işinə də xəyanət etmiş olursan.

Bir dəfə Qardabanda əməlli həvəslənib, gənclərdən ibarət çevrə yaradıb işlər görmək istəyirdik, sədasını eşitdiyim fəal gənc xanım var idi, şəxsən tanımadığıma görə bir tanış gəncə dedim ki, sənin dostunun yaxınıdır, xəbər göndər çevrəmizə dəvət edək, bir az keçəndən sonra bəy qalxıb nə desə yaxşıdı? “Qardaş, o qızı heç yaxşı söyləmirlərr” (mental oğlan idi bu da). Dedim, a sağ olmuş, elçi ha göndərmirəm, nəyimə lazımdı nəçidi, pinəçidi?

Beləcənə..

Məktəbdə oxuyurdum. Bir ortayaşlı müəllimənin yubileyi idi. Yubiley məktəbimizin akt zalında keçiləridi. Adət üzrə müəllimənin həmkarlarına, dərs dediyi şagirdlər arasında natiqlik və intonasiya qabiliyyəti olanlara çıxış üçün söz verilirdi. Və yubiley mərasimində yubilyar müəllimənin övladı olan gənc müəllimə də çıxış etdi. Bu gənc müəllimə özünün birinci sinifə yeni qədəm qoyduğu məqamdan bir xudmani xatirəsini bölüşdü. Heç nə əlavə etməyəcəm, yadımda qaldığı kimi yazıram. “Məktəbə başladığım gün idi. Anamın sinifində oxuyacaqdım, sinif rəhbərim anam olacaqdı. Uşaqların-valideynlərin səsi-küyü sinif otağını bürümüşdü. Hər valideyin öz övladının əlindən tutmuşdu, mənsə təkcə idim, çünki anam müəllimə olaraq şagirdlərinin valideynlərini dinləyirdi, onları yerbəyer etməklə məşğul idi. Və bunları görüb, mən ağlamağa başladım (kövrəlir), anam bunu görüb dedi ki: “Hanı bu uşağın anası, niyə ağlayır, çağırın anasını”, bunu dedi və yenə də öz işinə döndü. Mənsə, məəttəl qalmışdım, axı necə ola bilərdi ki, mənim anam məni tanımırdı”. Bura qədəri yadımdadı, elə əsas yeri də məhz burasıdır.

Mən hər dəfə bu xatirəni xatırlayanda o müəllimməyə hörmətim artır. Çünki bu müəllimə ictimai vəzifəsini, münasibətini, mövqeyini şəxsilərə qatmayıb. Bu çox çətin başa gələn işdir.

Əksəriyyətimiz ictimai münasibətimizi şəxsi münasibətimizə qatırıq və əksinə.

Sekulyarizm sözünü burada işlətsəm bilmirəm nə dərəcədə səhv düşəcəm, amma yəqin məqsəd başa düşülər.

Şəxsi münasibətlə, şəxsi mövqeylə ictimai münasibət, mövqe sekulyar olmalıdır.

**Və o müəllimə ona görə o cür hərəkət etdi ki, bilirdi , o qədər valdieyni-şagirdi buraxıb öz övladını ovundursa valideynlərin üreyində ləkə qalacaq və düşünəcəklər ki: “bu müəllim elə öz uşağı ilə oynayar, bizimkilərə diqqət bəsləməz”. Bax, bu xanım elə buna görə də ilk gündən “sekulyarizmi”n əsasını qoydu və qorumağa başladı.**

## ÖLKƏMİZDƏ PENSİYA İSLAHATLARINA 2018-Cİ İLİN ÜÇÜNCÜ KVARTALINDAN BAŞLANILACAQ

Hökumət pensiya və kapital bazarı islahatlarının gedişini nəzərdən keçirib. Hökumət administrasiyasında baş nazir Georgi Kvirikaşvilinin rəhbərliyi altında işgüzar görüş keçirilib.

Görüşdə Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi və Gürcüstan Milli Bankı islahatların gedişi barədə hesabat təqdim edib, habelə ayrı-ayrı mühüm məsələlərin və islahatların həyata keçirilməsinin müddətləri müzakirə edilib.

Görüşdə qeyd edilib ki, pensiya islahatı üzərində işlər plan üzrə gedir və o, 2018-ci ilin üçüncü kvartalından işə düşəcək. O vaxta qədər müvafiq qanunvericilik dəyişiklikləri hazırlanacaq.

İşgüzar görüşdə maliyyə və iqtisadiyyat nazirləri, nazir müavinləri, Milli Bankın prezidenti, vitse-prezidenti, habelə Gürcüstan Milli Bank Şurasının üzvləri iştirak ediblər.

## PARLAMENTDƏ KAĞIZDAN İSTİFADƏYƏ QƏNAƏT OLUNACAQ

Gürcüstan parlamentində müasir kommunikasiya vasitələrinin tətbiq olunması hesabına kağızdan istifadə olunmasına qənaət etmək qərara alınıb. Bu barədə parlamentin vitse-spikeri Tamar Çuqoşvili məlumat verib.

Onun məlumatına görə, Gürcüstan parlamenti hər il 10 min dəst kağız işlədir və ona 60 min lariyədək pul xərclənir.

Sentyabrın 5-də Gürcüstanın qanunverici orqanı payz sessiyası çərçivəsində işinə başlayıb. Parlament bürosunun iclası keçirilib və deputatları masaların üstündə gündəlik məsələlərlə bağlı kağız əvəzinə müasir elektron qacetlər qarşılayıb.



Çuqoşvili qacetlərin tətbiq olunması ilə xərclərin və ağacların məhv edilməsinin azalacağını vurğulayıb.

## ZORAKILIQ QURBANLARI ÜÇÜN SƏKKİZ DİLDƏ QAYNAR XƏTT FƏALİYYƏT GÖSTƏRİR

Gürcüstanda İnsan Ticarəti (trefikinq) Qurbanlarına Yardım Edilməsi və Qorunması Dövlət Fondunun 116 006 nömrəli qaynar xətti fəaliyyət göstərir.

Kömək üçün müraciət edənlərə Gürcüstan Əmək, Səhiyyə və Sosial Müdafiə Nazirliyinin layihəsi çərçivəsində fəaliyyət göstərən telefonla səkkiz dildə cavab veriləcək.

Artıq ailə və seksual zorakılıqla bağlı məsələlərə dair təkcə gürcü dilində deyil, həm də ingilis, rus, Azərbaycan, türk, erməni, ərəb və fars dillərində məsləhət almaq mümkündür.

Nazirliyin məlumatında deyilir: “Gecə-gündüz zəng etmək olar, zəng pulsuz və məxfidir”.

Dövlət Fondu 2006-cı ilin iyununda ailə və seksual zorakılıq qurbanlarına yardım məqsədilə yaradılıb.

Gürcüstanda trefikinq qurbanları üçün Tbilisi, Batumi, Qori, Kutaisi və Kaxeti regionunda sığınacaqlar fəaliyyət göstərir. Zərərdidələr mərkəzdə üç ay qala bilər, bundan sonra lazım gələrsə müddət uzadılır.

Mərkəzə ailə zorakılığının qurbanı olan, lakin hələ müvafiq status ala bilməyən Gürcüstan sakinləri düşə bilər. Status alanadək onlar böhran mərkəzində yaşayır, bundan sonra isə İnsan Ticarəti (trefikinq) Qurbanlarına Yardım Edilməsi və Qorunması Dövlət Fondunun sığınacağına keçirlər.

Mərkəzdə zorakılıq qurbanları hüquqi, psixoloji, tibbi yardım alırlar, burada onların cəmiyyətə inteqrasiya olunmasına yardım edirlər.

DİN-nin məlumatına görə, 2017-ci ilin əvvəlindən ölkədə 688 ailə zorakılığı qeydə alınıb, 548 hadisə üzrə cinayət işi qaldırılıb.

## GÜRCÜSTAN VƏTƏNDAŞLARI TÜRKİYƏNİN BİR SIRA BÖLGƏLƏRİNDƏ İŞ ÜÇÜN İCAZƏ SƏNƏDİ ALMADAN İŞLƏYƏ BİLƏCƏKLƏR



Gürcüstan Xarici İşlər Nazirliyinin məlumatına görə, Türkiyənin bir sıra vilayətlərində Gürcüstan vətəndaşları üçün mövsümi işlərə icazə alınması sadələşdirilib.

Mövsümi işə icazə almaq üçün Gürcüstan vətəndaşı Türkiyənin Əmək və Sosial Müdafiə Nazirliyinin Beynəlxalq Əmək Baş Direktorluğunun səhifəsinə daxil olub, elektron formada ərizə doldurmalıdır.

Nazirlikdə bildiriblər: “Gürcü tərəfinin səyləri nəticəsində 2017-ci ilin iyulunda Türkiyə Daxili İşlər və Əmək və Sosial Müdafiə Nazirlikləri tərəfindən sərəncam hazırlanaraq, dərc olunub. Sərəncama əsasən, birinci mərhələdə Samsun, Ordu, Giresun, Trabzon, Rizə və Artivin bölgələrində mövsimi iş istəyən Gürcüstan vətəndaşlarından bir ildə 90 gün ərzində iş üçün icazə almaq tələb olunmayacaq.

Mövsümi işlə məşğul olan Gürcüstan vətəndaşı bu sənədi almaq üçün Türkiyənin Əmək və Sosial Müdafiə Nazirliyinin Beynəlxalq Əmək Baş Direktorluğunun gürcü, türk və ingilis dillərində fəaliyyət göstərən https://yuminet.csgb.gov.tr/#/app/giris ünvanına daxil olub, elektron ərizə doldurmalıdır. Bunun əsasında o, iş üçün icazə tələb edən sənəd almaqdan azad edilir.

Ərizələrin doldurulmasının qayda və prosedurları Gürcüstanın Trabzondakı Baş Konsulluğunun rəsmi http://trabzon.con.mfa.gov.ge veb səhifəsində də yerləşdirilib.

# MİRVARİNİ QAÇIRANLAR

## Akaki Qelovani

*(əvvəli ötən saylarımızda)*

**Mirzə Şəfinin ilhamverici mənbəyi onun aydın şüuru və bir həqiqət olaraq həssas məhəbbəti, qadın məhəbbəti idi. İlk dəfə Gəncə xanının qızı Züleyxanı sevirdi. Bu məhəbbət nakam qaldı. Xan qızını bir xana ərə verdilər. Doğrudur, Mirzə Şəfi nişanlısını gizlicə götürüb qaçdı, lakin yolda fırtınaya düşdülər, bir kəndə sığındılar, burada onları tanıdılar və xana xəbər göndərdilər. Zavallı gəncəli Romeo və Cülyettanı həmişəlik olaraq bir-birindən ayırdılar. İkinci məhəbbəti Hafizə ilə daha bəxtəvər oldu, halbuki çox qısa. Bu iki qadın şairin ilham mənbəyi idi. Üçüncü dəfə artıq uşaqlı dul qadın aldı, dünyadan övladsız köçdü. "Divan"ın müəllifi kimi ona Hafiz ilham verdi, "Min bir gün"ün müəllifinin fantaziyası Mirzə Şəfini oyatdı.**

Oxucu görür ki, Bodenştedtin bu şeirlərə görə olimpiyaçılardan üzr istəyəcəyi bir şey yoxdur, halbuki Hafiz Mirzə Şəfidən böyük olduğu qədər Höte Bodenştedtdən böyükdür. Vaxtilə o vicdansızlıq etməyib, gəncəli müdriyin şöhrətlənməsi üçün enerjisini əsirgəməyib. "Min bir gün"ü və məhşur şeirlər toplusunu ona bağlayıb. O qədər də istedadsız olmayan şairin adı heç kimin diqqət yetirməməsi üzündən unudulub! Bodenştedtin Tiflisə gəlişindən öncə və buradan gedəndən sonra, bütün səkkiz ay ərzində, şairin ölümünə kimi nə qədər qiymətli şeiri itib. Demək mümkündür ki, Bodenştedt Piqafetanın Magellana etdiyi xidməti Mirzə Şəfiyə etmişdir. Başlıcası, qəhrəmanlıq işi və əsərlərinin xilas edilməsidir.

Əgər Bodenştedt öz şöhrətinin ən yaxşı hissəsinə görə Mirzə Şəfiyə minnətdardırsa, Mirzə Şəfi də ona özünün hay-küylü adına görə minnətdar olmalıdır. Xilas edib, əla da tərcümə etməsindən başqa Avropa kitab saxlanclarına, ensiklopediyalara saldı. Və şan-şöhrətə layiq olanların nail ola bilmədiklərini də etdi.

İkinci tərəfdən Bodenştedt Mirzə Şəfi qarşıdında bir növ Ekermanın rolunda çıxış edir, bütün bir sıra məsələlərdə onun diqqətəlayiq fikirlərini nüsxələyir və bizə əmanət edir.

Buna görə də hər halda bizə "müqəddəsləşdirilmiş" Bodenştedtin plagiatrlığı, onun eqoist məqsədləri, mənfəətpərəstliyi və özünün "bu cür nəsə bir şey yaza bilməməsinin" sübutu barədə həddini aşmış söhbət bir növ ənənəvi və qədiribilməzlik kimi görünür. Müşahidəçi və istedadlı tədqiqatçılar – Seyidzadə, Rəfili, Yenikolopov və b. əsərlərində bu cür tələbkarlıq özünü büruzə verir. Sadə könüllü və işbaz böyük şairin yaxşı tərcüməsini yarada da bilməzdi, bu, mübahisəli deyil. İstedadsızdan qanadlı söz uzaq düşür . Bodenştedt poetik istedad və fantaziyadan məhrum deyildi. Onun "Ləzgi qızı Ada" poeması tanınan bədii əsərdir və onun bir çox şeiri heç də pis deyildi. Başqa nə olmasa da, bizim əlimizdə onun "Kazbeqi", "Terek", ayrı-ayrı bədii təsvirlər var ki, bunların da müəllifini istedadsızlıqda qınaya bilmərik.

Tədqiqatçılar plagiatrın bir əsas sübutu olaraq onu göstəririrlər ki, "Nəğmələrin" doğurduğu rezonans, Bodenştedtin öz poetik irsində olmayıb. Bu doğrudur. Hötenin ölkəsində öz şeirləri ilə özünü göstərmək heç də asan olmayıb. Orta əsrlərin Şərq ətirləri ilə halə saçan alman nəğməkarlarının şərabla və qadınla maraqlandırılması özünəməxsusluqla əks-səda verirdi, öz-özlüyündə uğurlar



üçün daha artıq əsas yaradırdı. Heyne kitablardan deyil, həyatın dərinliyindən gəlib, lakin Heyne də ilk dövrlər oxucunun diqqətini cəlb edə bilməyib.

Bodenştedtin poetik istedadı daha çox "Mirzə Şəfi nəğmələri"ndə özünü büruzə verdi. Bu öz-özlüyündə öz əsərini yaratmaq istedadının olmamasına sübut deyil. Dünya ədəbiyyatı tarixi yazıçının dərya qədər yazılarında bir janrın və ya bir-iki əsərin onun adını məşhurlaşdırdığına, qalanlarının isə unudulmağa məhkum olduğuna dair bir çox nümunə bilir. Svift, Şatobrian, Servantes, Andersen, Abati Prevonu... xatırlamaq kifayətdir.

Tədqiqatçılar Bodenştedtin: Mirzə Şəfi bu nəğmələrinə görə mənə minnətdar olmalıdır – bəyanatını kəskin qarşıladılar. Qeyd edildiyi kimi, bir tərəfdən onun belə bəyanat verməyə haqqı vardı. Sonralar hər şeyin özününkü olduğunu bəyan etməsi nalayiq iş idi. Bu, qazandığı hörməti də itirdi. Ümumiyyətlə, vicdanlı şairin bu cür çirkin addımı niyə atması təəccüb doğurur. Rus tərcüməçisi Naum Qrebnov da düşüncələrə dalıb: "Bilmirəm, Bodenştedti özünün "ifşaedici"bəyanatını verməyə nə məcbur etdi: tərcümə zamanı yol verdiyi müəyyən sərbəstlik, nəğmələrin qeyri-adi uğuru, yoxsa azdırma, heç kim mənimlə mübahisə edə bilməz" – deyir". Hər üç səbəbin olduğunu düşünürük. Mübahisəsiz, hannoverli şair nəsə demək istəyirdi, lakin demək istədiyindən artıq dedi.

Buna görə də Bodenştedtin hakimi Şərq və Qərb poeziyasını, onların mənasını, formasını, məğzini hər iki şairin irsi ilə yanaşı öyrənməlidir. Və sonra şərhlərdə hər şeyə aydınlıq gətirməlidir.

Bu təhlil vacibdir. Müəyyən olunduğu kimi, "Nəğmələrin" bir çox sətri və bəzi şeirlər də, giriş isə sözsüz Mirzə Şəfinin olmamalıdır. Artıq bu şeirlərin quruluşu, məğzi, Avropa poeziyasına xas olan üslub, Mirzə Şəfidən az gözlənilən kəlmələr, müqayisələr bundan xəbər verir. Belədir, məsələn, gürcü qadınlarının trakiyalılarla müqayisəsi, "Məni təqsirləndirirsən, ey dost", "Təskinlik", "Qara dənizin nəğmələri", Şərq müdrikliyinin Qərb interpretasiyaları. Mirzə Şəfi Qara dənizdə olmayıb, gəmidə oturan şairin gürcü qızı ilə vidalaşdığı şeirlərin ona məxsus olması mümkün deyil.

Demək olar ki, hər yeni nəşrə Bodenştedt yeni şeirlər daxil edirdi. Hardan alırdı? Məgər yalnız özü ilə apardığı dəftərdən? Onda niyə bir dəfəlik tərcümə etməyib? Bu çirkin sualdır.

"Tiflis" şeirində alman şairin əli aydınca görünür. Alman orijinalı azrbaycanca və rusca tərcüməsinə nisbətən genişdir. Reyn və Elbadan söhbətin getdiyi yerlər və bəzi ətraflı düşünmə tərzi də mübahisəsiz alman şairinindir. Sonra, heç kim deyə bilməz ki, bu zəif şeirlərdir.

Bəzi şeirlərdə, görünür, Mirzə Şəfinin müdrik fikri, məhvər olaraq istifadə edilib. Aydındır ki, bu, Mirzə Şəfinin ləyaqətini alçaltmır.

* * *

**Bodenştedt heç də nəhəng adam deyildi. Heç bir millətin ədəbiyyatı təkcə nəhənglərdən ibarət deyil. Lakin onun çoxcəhətli ədəbi irsi ilə hesablaşmaq lazımdır. Onun poetik, böyük tərcüməçilik istedadı və xidməti onu alman ədəbiyyatında məşhur bir şəxsə çevirir və müəyyən dərəcədə heç bir geniş icmalda, ensiklopediyada, istərsə də araşdırmalarda onun soyadından yan ötmürlər. Gəncəli müdriyin hannoverli oxşarı barədə bol ədəbiyyat mövcuddur. Müxtəlif fikir ayrılığı var. Əgər bir qrupun fikrincə, o, epiqon və orta istedada malik plagiatçıdırsa, başqaları onu "parlaq lirik" və "qüsursuz tərcüməçi"adlandırırlar. Üçüncülər, yəni züy tutmağı bacaran, heç zaman, heç bir diyarda yaxşı ilə pisi şeçə bilməyən ciddilər də və mənasız işlərlə məşğul olan tənqidçiciyəzlər də susurlar. Kurt Zundermayerin sözlərinə görə, tale ona öz ömründə bir dəfə hər halda tamamilə lazımi yerə düşə bilməsi üçün ən böyük xoşbəxtlik bəxş etmişdir". Bu barədə onu qeyd etməliyik ki, istedadsız usta min bardaqdan birini də xeyirli hazırlaya bilməz və öz yerinə düşməklə iş görmək də usta əli tələb edir.**

***Gürcü dilindən tərcümə edən: Mirzə Məmmədoğlu***

## GÜRCÜSTANDA SON BEŞ İLDƏ QARAYARADAN İLK ÖLÜM HADİSƏSİ QEYDƏ ALINIB

Gürcüstanda 2013-cü ildən bəri qarayaradan (Sibir yarası) ilk ölüm hadisəsi qeydə alınıb. Məlumatı Xəstəliklərə Nəzarət və İctimai Sağlamlıq Milli Mərkəzi yayıb.

Mərkəzin yolxucu xəstəliklər xidmətinin rəhbəri Xatuna Zaxaşvilinin sözlərinə görə, Acaranın Xelvaçuri rayonunun Axalsopeli kəndində qarayaradan 60 yaşlı kişi ölüb.

Xəstə yardım üçün tibb müəssisəsinə gec müraciət edib. Onda xəstəliyin dəri forması olub. Bu xəstəlik yoluxmuş heyvanlarla təmas nəticəsində yaranır. Hadisə avqustun 26-da baş verib.

Səkkiz ayın məlumatına görə, Gürcüstanda qarayaranın dəri formasına yolxma hadisəsi 20 dəfə qeydə alınıb. Eyni sayda hadisə 2016-cı ildə də qeydə alınmışdı.

Zaxaşvili bildirib: "Ümumilikdə son iki ildə insanların qarayara xəstəliyinə tutulması halları intensiv şəkildə azalıb. Yalnız dəri forması qeydə alınır. Bu, heyvanları kəsərkən və dərisini soyarkən və ya ət tədarük edərkən baş verir. Qarayara ağır xəstəlikdir, xüsusilə də pasiyent həkimə gec müraciət edib, müalicə kursu keçmədikdə bəzən ölümlə nəticələnir".

Qarayara yolxucu xəstəlikdir, qızdırma, limfa vəzilərinin zədələnməsi, intoksikasiya ilə xarakterizə olunur. Dəri, nadir hallarda bağırsaq, ciyər və septik formada özünü göstərir.

## YOLLARDA ÖLÜM SƏVİYYƏSİNƏ GÖRƏ GÜRCÜSTAN BİRİNCİ YERİ TUTUR



Gürcüstanda yol-nəqliyyat hadisələri nəticəsində əhalinin hər milyon nəfərinə orta hesabla 163,6 nəfər həlak olur və bu, dünyada ən yüksək göstəricidir. Bu barədə Ukraynanın analitik Corestone Corporation qrupunun məlumatında bildirilir.

Reytinqdə Gürcüstanın ardınca 160,4 ölüm faktı ilə Rusiya gəlir. Reytinqin ilk onluğunu isə Ermənistan (114,7 nəfər), Hindistan (111,5 nəfər), ABŞ (109,5 nəfər), Bolqarıstan (98,6 nəfər), Türkiyə (95,7 nəfər), Latviya (94,5 nəfər), Albaniya (93,5 nəfər) və Ukrayna (93 nəfər) tamamlayır.

Reytinqin digər ucunda isə ən yaxşı göstərici Skandinaviya ölkələrinə və Maltaya məxsusdur. Belə ki, yol-nəqliyyat hadisələri nəticəsində əhalinin hər milyon nəfərinə Norveçdə cəmi 22,5, Maltada 25,5 və üçüncü yeri tutan İsveçdə isə 26,4 nəfər həlak olur.

HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

15 sentyabr 2017-cı il
№017 (55)

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / “იენი იოლი” საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

## TÜRKDİLLİ ÖLKƏLƏRİN VAHİD UNİVERSİTETİNİN YARADILMASI TƏKLİF OLUNUB

Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Qazaxıstana səfərindən sonra türkdilli ölkələrin vahid universitetinin yaradılması təklifi ilə çıxış edib.

Ərdoğan vahid universitet təsis edilməsinin bütün türk dövlətlərinin marağına cavab verdiyini vurğulayıb.

O, deyib: “Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan və Türkiyə də daxil olmaqla bütün türkdilli ölkələr yeni universitetin təsisçisi ola bilər”.

Qeyd edək ki, Türkiyə prezidenti sentyabrın 8-10-da İslam Əməkdaşlıq Təşkilatının elm və texnologiya üzrə I Sammitində iştirak etmək üçün Qazaxıstana səfər etmişdi.

## GƏNC YAZAR KAMURANIN “BİR DİŞLƏK ALMA” ROMANININ TƏQDİMATI KEÇİRİLDİ




Sentyabrın 6-da Marneuli Mədəniyyət evində gənc yazar Kamuranın “Bir dişlək alma” romanının təqdimatı və imza günü keçirildi. Tədbirdə dövlət nümayəndələri, ziyalılar, tələbələr və dəvət edilmiş qonaqlar iştirak edirdilər. Müəllif kitabın araya-ərsəyə gəlməsində ona dəstək olan hər kəsə minnətdarlığını bildirərək, tədbirə qatılanlara təşəkkür etdi. O, öz çıxışında “Bir dişlək alma” romanının yaxın gələcəkdə gürcü dilinə tərcümə ediləcəyinin planlaşdırıldığını da mərasimə toplaşanların diqqətinə çatdırdı.

Mərasimdə çıxış edən Gürcüstan parlamentinin deputatı Ruslan Hacıyev, Kvemo Kartli qubernatorunun müavini Zaur Dargəllı, Marneulidən bələdiyyə sədrliyinə namizəd Amiran Giorgadze, jurnalist Nizami Məmmədzadə və“Yeni Yol” qəzetinin redaktoru A. Muxtaroğlu gənc ədibə yaradıcılıq uğurları diləyib, onun bu kitabının digər gənclərə də örnək olacağını dilə gətirdilər.

Xatırladaq ki, Kamuranın imzası “Yeni Yol”un oxucularına da yaxşı tanışdır. Belə ki, o, qəzetimizin ən fəal müəlliflərindən biridir və onun hekayələri və çeşidli mövzularda, fəlsəfi yönümdə qələmə aldığı publisistik yazılar vaxtaşırı olaraq qəzetimizdə çap olunur.

## GÜRCÜSTANDA LOTEREYA OYUNLARI BAŞQA ŞİRKƏTİN İXTİYARINA KEÇİR

“Gürcüstan lotereya kompaniyası” MMC (Georgian Lottery Company LLC) sentyabrın 1-də “36-dan 6 loto” oyununu başa vurub. Şirkət uduşları ödədikdən sonra bağlanacaq.

70%-i dövlətə məxsus olan “Gürcüstan lotereya kompaniyası”nın ölkə hökuməti qarşısında maliyyə öhdəliklərini yerinə yetirə bilməməsi səbəbindən fəaliyyətini dayandırmağa məcbur olub.

Maliyyə Nazirliyi kompaniyanın lisenziyasını ləğv etmək qərarına gəlib.

Artıq Gürcüstanda lotereya oyunlarını keçirəcək yeni şirkət bəllidir. Maliyyə Nazirliyinin məlumatına görə, lotereya oyunlarının təşkili və keçirilməsi lisenziyasını Georgia National Lottery şirkəti qazanıb.

## NƏQLİYYAT SAHƏSİNDƏ 100 İLİN ƏN BÖYÜK UĞURU



“Hyperloop” vakuum qatarı layihəsinin gerçəkləşməsinə az qalıb. Layihənin rəhbəri Elon Mask qatarın prototipini nümayiş etdirib.

Layihə tətbiqini tapacağı təqdirdə sərnişinləri bir məntəqədən digərinə saatda 804 kilometr sürətlə çatdırmaq mümkün olacaq. Bu, 1 saat ərzində Gürcüstanın bu başından o başına gedib-qayıtmaq deməkdir.

Layihə yerüstü nəqliyyat sahəsində 100 ilin ən böyük uğuru hesab olunur.

“Hyperloop” şirkəti ilə artıq müqavilə bağlayan ölkələr də var. Məsələn, BƏƏ hökuməti paytaxt Əbu-Dabidən Dubaya olan məsafəni minimuma endirmək üçün cidd-cəhdlə çalışmağa başlayıb. Qeyd edək ki, iki şəhər arasında məsafə 120 kilometrdir. “Hyperloop”la bu məsafəni 8 dəqiqəyə qət etmək mümkün olacaq.

## «QURANİ-KƏRİM»İN AZƏRBAYCAN VƏ GÜRCÜ DİLLƏRİNDƏ TƏRCÜMƏSİ ÇAP OLUNUB



Gürcüstan Müsəlmanları İdarəsinin sifarişi və dəstəyi ilə “Nurlar” və “Hayrat” nəşriyyatında “Qurani-Kərim”in Azərbaycan və gürcü dillərində tərcüməsi yenidən çap olunub.

Əvvəlki nəşrdən fərqli olaraq yeni kitabda mətn ərəbcə verilir, haşiyələrdə isə tərcümələr qeyd olunur.

Latın qrafikası ilə Azərbaycan dilində nəşr olunan “Qurani-Kərim”in növbəti tərcüməsi akademik Ziya Bünyadova və Vasim Məmmədəliyevə, gürcü dilinə tərcümə isə Rezo Mikeladzeyə məxsusdur.

Kitab dini məktəblərə və məscidlərə, həbsxanalardakı dini ibadət yerlərinə, eləcə də maraqlananlara pulsuz paylanacaq. Xatırladaq ki, Ağabala Mehdiyev və Dürdanə Cəfərlinin tərcümə etdiyi (ərəbcə mətn və izahlı tərcümə) 1200 səhifədən ibarət “Qurani-Kərim” ötən il 3000 nüsxə çap edilərək Gürcüstanda yaşayan müsəlmanlara pulsuz təqdim olunmuşdu.

## DRONLARDAN İSTİFADƏ QAYDALARI DƏYİŞİR



Gürcüstanda “Pilotsuz uçuş aparatları (PUA) və uçuşları, habelə pilotsuz uçuş aparatlarının və pilotsuz uçuş sistemlərinin istismarı, istifadəsi və məhdudlaşdırılması qaydaları” qüvvəyə minib.

Cari il sentyabrın 1-dən PUA-nın icazə verilən maksimal uçuş hündürlüyü yerdən 400 fut və ya 122 metr, maksimal sürəti isə saatda 160 km təşkil edəcək.

İqtisadiyyat Nazirliyinin Mülki Aviasiya Agentliyinin xüsusi icazəsi olmadan çəkisi 25 kq, maksimum sürəti saatda 54 km olan PUA-dan dan istifadə etmək olar.

Dronlar insan qruplarından, dəmir yolları və avtomobil yollarından, binalardan üfüq üzrə 50 metr və aerodromlardan üfüq üzrə 6 kilometr aralıda olmalıdır. Adamların dronlarla daşınması, habelə bir uzaqdan idarəetmə stansiyasından bir neçə PUA-ı idarə etmək də yeni qaydalara görə yasaqdır.

PUA-nın istismarçısına Mülki Aviasiya Agentliyinin icazəsi olmadan Gürcüstanın dövlət sərhədini keçmək qadağan olunur. Müvafiq orqanlarla razılaşdırılmadan dron sahibi açıq dənizdə ondan istifadə edə bilməz. Bundan başqa, noyabrın 1-dən çəkisi 5 kiloqramdan ağır olan PUA-ı qeydiyyatdan keçirmək gərəkdir.

## ÇİN NƏHƏNG BİR LAYİHƏ GERÇƏKLƏŞDİRMƏYƏ HAZIRLAŞIR



Çinin Aerokosmos Elm və Sənaye Korporasiyası sürəti saatda 4 min kilometrə çatan qatar hazırlamağı planlaşdırır.

“HyperFlight” qatarının ərsəyə gətirilməsində 20-yə qədər Çin və əcnəbi şirkət iştirak edəcək. Layihənin 3 mərhələdə gerçəkləşdirilməsi nəzərdə tutulur.

Birinci mərhələdə saatda 1000 kilometr sürətlə hərəkət edən regional qatarlar işə salınacaq. İkinci mərhələdə sürəti saatda 2000 kilometrə çatan qatarlar ölkənin iri meqapolislərini birləşdirəcək.

Üçüncü mərhələdə isə sürəti 4000 kilometrə çatan qatarların Çin hüdudlarından kənara çıxması nəzərdə tutulur.

Təsisçi:
“Gürcüstan Gənclərinə Yardım Və Maarifləndirmə Təşkilatı”

*Redaktor:*
Afiq Muxtaroğlu
*Yayım Direktoru:*
Hacı Bəkiroğlu

*ÜNVAN:* Qardabani şəh. Kolxoz küç, 4
*TEL:* (+995) 595 92 25 70
599 54 12 92
*EMAİL:* yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.